**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının
Prezidenti yanında Qiymətli Kağızlar
üzrə Dövlət Komitəsi
Əmr № 65

«08» noyabr 1999-cu il

Sədr ____________ H. Babayev

# Qiymətli kağızlarla alqı-satqı əqdlərinin qiymətli kağızlar bazarının peşəkar iştirakçıları vasitəsi ilə bağlanma və qeydiyyatı qaydaları haqqında

## Ə S A S N A M Ə

### 1.Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının 1998-ci il 14 iyul tarixli Qanununa və Azərbaycan Respublikasının Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında" Əsasnamənin müddəalarına müvafiq olaraq hazırlanmışdır.

**1.2**. Bu Əsasnamənin müddəaları, Dövlət özəlləşdirmə payları (çekləri) və Dövlət özəlləşdirmə opsionları istisna olmaq şərti ilə Azərbaycan Respublikası ərazisində buraxılan emissiya və qeyri-emissiya qiymətli kağızları ilə (Dövlət və Bələdiyyə qiymətli kağızları daxil olmaqla) birja və birjadan kənar alqı-satqı əqdlərinin bağlanmasını və qeydiyyat qaydalarını müəyyən edir.

**1.3.** Bu Əsasnamənin müddəaları yuxarıda sadalanmış qiymətli kağızların, yaxud onlara dair hüquqların səhmdar cəmiyyətlərinə və hər hansı hüquqi şəxsin nizamnamə fonduna pay kimi qoyulduqda, həmçinin qapalı tipli səhmdar cəmiyyətlərin səhmdarlarına məxsus səhmlərin digərlərinə ötürülməsi hallarına şamil edilmir.

### 2.Qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanma qaydaları

**2.1**. Qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanması yazılı surətdə, iki tərəfli sənədin - müqavilənin imzalanması ilə, yaxud tərəflərin iradəsini sənədləşdirilmiş

şəkildə müəyyən etmək imkanı verən başqa üsullarla (məktublaşma, teleqram və ya başqa əlaqə vasitəsi ilə) həyata keçirilir.

**2.2**. Öz adından və öz hesabına qiymətli kağızlarla əməliyyatları həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçıları (dilerlər) qiymətli kağızlarla əqdlər bağlayarkən aşağıdakılara riayət etməlidirlər:

- qiymətli kağızlarla əqdlərin bağlanmasından əvvəl qiymətli kağızların müəyyən edilmiş (təsbit edilmiş) dəqiq alqı-satqı qiymətini açıq surətdə e'lan etmək;

- alqı və yaxud satqı təklifləri ilə onlara müraciət etmiş şəxslərlə, qiymətli kağızların qabaqcadan e'lan olunmuş dəqiq təsbit edilmiş qiymətinə və sayına uyğun olaraq, əqd bağlamaq və həmin əqdlərin bağlanmasından imtina etməmək.

**2.3.** Qiymətli kağızlar bazarında komisyon müqavilələri əsasında fəaliyyət göstərən qiymətli kağızlar bazarının peşəkar iştirakçıları (brokerlər) müştərilərin tapşırığı ilə qiymətli kağızlarla əqd bağlayarkən aşağıdakılara riayət etməlidirlər:

- müştərinin əqdi ödəyəcəyinə zəmanət olmadığı halda, qiymətli kağızları almaq tapşırıqlarının qəbulundan imtina etmək;

- müştərinin satmaq üçün təklif etdiyi qiymətli kağızlara sahiblik və sərəncam hüququnu təsdiq edən sənədləri beş iş günü ərzində vermədiyi halda tapşırığın qəbulundan imtina etmək;

- əqd bağlandıqdan və ya tapşırığın müddəti bitəndən sonra, dərhal müştəriyə əqdin nəticələri haqqında mə'lumat vermək;

- müştəri adından qiymətli kağızlarla əməliyyatların keçirilməsi və yaxud onun aktivlərinin idarə edilməsi üçün müştəridən e'tibarnamə aldıqda, e'tibarnamədə öz əksini tapmış qarşılıqlı münasibətlərin şərtlərinə uyğun olaraq, müəyyən edilmiş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərmək.

**2.4.** Qiymətli kağızlar bazarının peşəkar iştirakçısı qiymətli kağızlar üzrə xidmətləri göstərənədək müştərilərə aşağıdakılar barədə mə'lumatı yazılı surətdə açıqlamalıdır:

- qiymətli kağızlar üzrə konkret əqdin bağlanması və xidmətlərin göstərilməsi ilə əlaqədar həyata keçirdiyi peşəkar fəaliyyət növü;

- qiymətli kağızlar üzrə xidmətin, komisyon haqqının və ya diler yığımının miqdarı;

- qiymətli kağızlar bazarında peşəkar fəaliyyət göstərmək üçün verilmiş lisenziyanın surəti.

**2.5.** Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, müştərilərin hesabına əqdlərin bağlanmasını yalnız müvafiq tapşırığ və yaxud komisyon müqavilələri əsasında, həmin müqavilələrdə göstərilən bütün zəruri şərtlərə tam şəkildə uyğun olaraq, həyata keçirə bilərlər.

Müqavilə icra olunanadək, müştəri müqaviləni birtərəfli xitam etmək hüququna malikdir. Həmin hüquqa tapşırıq müqaviləsi əsasında fəaliyyət göstərən vəkil edilmiş şəxs də malikdir.

Tapşırıq və ya komisyon müqaviləsinin yerinə yetirilməsi, brokerin müştəriyə əqdin bağlanması haqqında rəsmi bildirişin təqdim etməsidir.

**2.6.** Qiymətli kağızlar ilə əqdlərin bağlanması zamanı tərəflər aşağıdakı şərtlər üzrə razılığa gəlməlidirlər:

- qiymətli kağızların növü, adı, onların Dövlət qeydiyyat nömrəsini göstərməklə, qiyməti və sayı barədə;

- əqdin icrasına görə komisyon haqqının məbləği üzrə.

Qarşılıqlı razılaşma əsasında tərəflər əqdlərə başqa şərtlər də əlavə edə bilərlər. Müştəri, qiymətli kağızların alınmasında kreditlərdən istifadə etdiyi halda, qiymətli kağızlar bazarının peşəkar iştirakçısını bu barədə xəbərdar etməlidir.

**2.7**. Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları onlar tərəfindən bağlanmış bütün əqdlər haqqında müqavilələri, qüvvədə olan qanunvericiliyə müvafiq olaraq saxlamalı və Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin tələbi ilə dərhal təqdim etməlidirlər.

**2.8.** Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, müştərilərin birinci tələbi ilə, onların tapşırığı əsasında bağlanmış qiymətli kağızların alqı-satqı müqavilələrinin nüsxələrini təqdim etməli, bağlanmış əqdlərin şərtləri haqqında mə'lumat verməlidirlər, o cümlədən:

- alınmış və ya satılmış qiymətli kağızların adı, onların dövlət qeydiyyat nömrəsi, sayı və nominal dəyəri;

- əqdin qiyməti;

- diler yığımının, komisyon (broker) haqqı və konkret əqdin həyata keçirilməsi zamanı digər xidmətlərin göstərilməsinə görə ödənişlərin faktiki məbləği;

- əqdlərlə haqq-hesabların aparılması və alıcılara alınmış qiymətli kağızların alıcıların adına rəsmiləşdirilməsi qaydaları, üsulları, müddəti.

**2.9**. Peşəkar iştirakçılar və müştərilər arasında yaranan bütun mübahisələr mövcud qanunvericilikdə nəzərdə tutulan qaydada həll edilir.

## 3. İri səhm paketlərinin alınması ilə bağlı əqdlərin bağlanmasının xüsusi şərtləri

**3.1.** Qiymətli kağızlara hüquqların keçməsi zamanı və səhmdar cəmiyyətlərin nizamnamə kapitalının həcmi artırıldıqda hər hansı emitentin nizamnamə kapitalında səsvermə hüququna malik səhmlərin 20 faizdən çoxunun bir hüquqi və ya fiziki şəxsin, yaxud bir-birinin əmlakına nəzarət edən şəxslər qrupunun əldə etməsi Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyi ilə tənzimlənir.

Bu tələb emitentin və investorun cəmlənmiş nizamnamə kapitalı birlikdə minimum əmək haqqının 75 min mislindən çox olmadığı hallara və dövlət müəssisələrinin özəlləşdirilməsi zamanı yaradılan və nizamnamə kapitalı minimum əmək haqqının 50 min mislindən az olan səhmdar cəmiyyətlərə şamil edilmir.

**3.2**. Bir hüquqi və ya fiziki şəxs, həmçinin ümumi birgə mülkiyyət hüququ olan, yaxud sazişlə bağlı və ya bir-birinin əmlakına nəzarət edən şəxslər qrupu tərəfindən, hər hansı bir emitentin səhmlərinin 20 faizindən artıq hissəsinin alınması zamanı, Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə beş iş günü ərzində bu barədə bildirilməlidir.

Bildiriş yazılı surətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, yaxud fiziki şəxs barədə məlumatlar göstərilməklə, hər hansı bir emitentin səhmlərinin 20 faizindən artıq hissəsinin alınması ilə nəticələnən qiymətli kağızlarla əqdlər üzrə müqavilələrin nüsxələri əlavə olunmaqla, əqdi qeydiyyatdan keçirmış peşəkar iştirakçı tərəfindən göndərilir.

## 4. Qiymətli kağızlarla əqdlərin qeydiyyatı

**4.1**. Qiymətli kağızlarla əqdlərin qeydiyyatı, Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən müəyyən olunmuş hallar istisna olmaqla, bu Əsasnamənin tələblərinə uyğun olaraq həyata keçirilir.

**4.2**. Qiymətli kağızlarla əqdlərin qeydiyyatı depozitar və qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət göstərən qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən həyata keçirilir.

**4.3.** Əqdlər dövlət qeydiyyatından keçmiş qiymətli kağızlarla həyata keçirildikdə qeydiyyata qəbul olunur.

**4.4.** Qiymətli kağızlarla əqdlərin qeydiyyatı müqavilə və yaxud əqdin baş verməsini təsdiq edən başqa sənədlər əsasında həyata keçirilir.

**4.5.** Əqd, bu Əsasnamədə müəyyən edilmiş qaydalara zidd olaraq icra edildikdə, peşəkar iştirakçılar əqdin qeydiyyatından imtina etməlidirlər.

**4.6**. Qeydiyyatdan keçirilməsi üçün əqd hüquqi və ya fiziki şəxslər, yaxud onların müvəkkil nümayəndələri tərəfindən qeydiyyat orqanına təqdim olunur.

**4.7.** Əqdlərin qeydiyyatı xüsusi qeydiyyat registrlarında həyata keçirilir. Qiymətli kağızlarla əqdlərin qeydiyyatını keçirən hər bir təşkilat əqdlərin bütün növləri üzrə vahid qeydiyyat registri aparır.

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qeydiyyat registrlarının aparılmasına nəzarət edir.

**4.8**. Əqdin bağlanmasını təsdiq edən sənəddə qeydiyyat orqanı, qeydiyyat tarixi, yeri, registrı üzrə sıra ardıcıllığı ilə qeydiyyat nömrəsi qeyd olunur. Qeyd qeydiyyat orqanı tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

## 5.Əqdlərin bağlanma və qeydiyyatı qaydalarının pozulmasına görə məs’uliyyət

5.1. Bu Əsasnamədə olan qaydaları pozan qiymətli kağızlar bazarının peşəkar iştirakçıları Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məs'uliyyət daşıyırlar.

## 6. Qüvvəyə minmə qaydası

6.1. Bu Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir.